İPƏK YOLU, No.2, 2026, səh.164-168
https://doi.org/10.30546/SI.2026.2.01.739

# ROBERT KUVERİN "BRUNİSTLƏRİN MƏNŞƏYİ" ROMANINDA DİNİ KULT PROBLEMİNƏ POSTMODERN YANAŞMANIN XÜSUSİYYƏTLƏRİ

**Xəyalə Cəfərova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: khayala.aliyeva@au.edu.az

**Xülasə.** Məqalədə Robert Kuverin "Brunistlərin mənşəyi" romanında apokaliptik diskursun, kütləvi psixozun və media vasitəsilə manipulyasiyanın postmodern təcəssümü araşdırılmışdır. Tədqiqatda dini kultun yaranma şəkli, onun idarə edilməsi və yönləndirilməsi sosial və psixoloji aspektdən təhlil edilmişdir. Burada Covanni Brunonun sakrallaşdırılması, Eleanor Nortonun spiritual-okkultik üsullarla fanatik şüurun obyektinə çevrilməsi, medianın hadisələrin gedişatına təsir etmə şəkli elmi-nəzəri yanaşmalarla şərh olunmuş və dekonstruksiya vasitəsilə irrasional düşüncə tərzində yaranan apokaliptik mifin postmodern ironiya ilə tənqid olunması təqdim edilmişdir. Romana dair təhlil müasir ədəbiyyatşünaslığımız üçün aktuallıq kəsb edir və ideya-estetik mahiyyət daşıyır.

**Açar sözlər:** Postmodern roman, apokaliptik mövzu, dini kult, kollektiv psixoz, Robert Kuver, "Brunistlərin mənşəyi" romanı.

**FEATURES OF THE POSTMODERN APPROACH TO THE PROBLEM OF RELIGIOUS CULT IN ROBERT COOVER'S NOVEL "THE ORIGIN OF THE BRUNISTS"**

**Khayala Jafarova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** In this article, the postmodern embodiment of apocalyptic discourse, mass psychosis, and mass media manipulation in Robert Coover's novel "The Origin of the Brunists" is considered. The research analyzes the formation of a religious cult, its management and leadership from a social-psychological point of view. Here, the sacralization of Giovanni Bruno, the transformation of Eleanor Norton into an object of fanatical consciousness by means of spiritualistic and occult methods, as well as the influence of the media on the course of events are interpreted with the help of scientific and theoretical approaches. Apocalyptic myth, which arose in irrational thinking by means of deconstruction, is criticized with the help of postmodernist irony. The analysis of the novel is relevant for our modern literary criticism and has an ideological and aesthetic character.
**Keywords:** Postmodernist novel, apocalyptic theme, religious cult, collective psychosis, Robert Coover, novel "The Origin of the Brunists".

## 1. Giriş

Dini miflərin, ideoloji quruluşların və kütlə şüurunun postmodern səciyyəsi XX əsrin ikinci yarısında ABŞ ədəbiyyatının əsasını təşkil edir. Robert Kuverin "Brunistlərin mənşəyi" ("The Origins of the Brunists") romanı bu kontekstdə apokaliptik dünyagörüşünün həm sosial, həm də psixoloji təbiətinin əks olunduğu bədii mətn kimi özünü göstərir. Əsər real hadisəyə bənzər şəkildə göstərilən mədən faciəsi fonunda mifin yaranma mexanizmini ortaya qoyur.

Robert Kuverin "Brunistlərin mənşəyi" romanı XX əsr amerikan postmodern ədəbiyyatında dini miflərin yaranma mexanizmini, kütlənin psixologiyasını və buna medianın təsirini tənqidi-ironik aspektdən yanaşan ədəbi nümunələrdən biridir. Əsər dörd hissə və epiloqdan ibarətdir. Romanda baş verən faciəvi mədən fəlakəti və digər hadisələr uydurma və

yazıçının da ironik şəkildə adlandırdığı Vest Kondon şəhərində baş verir. Əsərin əsas mövzusu yazıçının özünün də təsirləndiyi 1951-ci ildə İllinoys ştatının Vest Frankfurt şəhərində baş verən mədən faciəsindən ilhamlanmışdır. Bu hadisəni situativ problemə çevirərək, R. Kuver mədən partlayışı kimi travmatik hadisənin fonunda fərdi təcrübənin kollektiv mifə çevrilməsi prosesini təsvir etmişdir. Müəllif romanda dünyanın sonu ilə bağlı gözləntilərin sosial şüurda formalaşma prosesini və manipulyasiya olunma şəklini göstərməklə bərabər müasir insanın mənəvi boşluq içərisinə düşərkən mifoloji düşüncəyə olan meylini ifşa edir.

## 2. Travmatik şüur və kütlə psixologiyası əsasında Covanni Brunonun sakrallaşdırılması problemi

Yaradıcılığı çoxmənalılıq və qeyri-müəyyənlik üzərində qurulan R. Kuverin "Brunistlərin mənşəyi" romanı bəzi tənqidçilərə görə xristian inanclarını dəstəklədiyini, digərləri isə onu dini kultları və inanclara sərt dekonstruktiv yanaşma əsasında yazdığını qeyd etmişlər [1, s.295]. Belə ki, romanın başlanğıcında mədən partlayışı kütləvi psixoloji travma yaradır. Bu travma cəmiyyətin rasional təfəkkürünü, düşüncə tərzini zəiflədir. İbtidai icma dövründə insanların təbiət hadisələrinin baş vermə səbəbini dərk edə bilmədiklərinə görə uydurduqları və irrasional düşüncə ilə ortaya qoyduqları izahlar kimi kütlənin metafizik açıqlamaya ehtiyacını gücləndirir. Apokalipsis ideyası burada dini doktrina deyil, psixoloji mexanizm kimi şərh olunur. Kütlənin düşüncəsində yaranan suallara cavab olaraq qeyri-rasional yanaşmanı formalaşdırır.

Covanni Bruno romanın mərkəzində duran obrazdır və "xilaskar" statusunu qazanmışdır [3]. Bir çox mədənçinin (97 nəfərin) həlak olduğu halda yalnız Brunonun sağ çıxması insanlar arasında heyrətlə qarşılanır. Bir müddət o, karbonmonoksit zəhərlənməsi nəticəsində komada olur və daha sonra ayılır. Komadan ayıldıqdan sonra adi mədənçidən özünün belə xəbəri olmadan müqəddəsləşən insana çevrilir. Belə olan halda özü də nə baş verdiyini dərk edə bilmir. Spiritualist Eleanora isə onu artıq ilahiləşdirmək istiqamətində hər vəchlə əlindən gələni edir. Brunonun adına uyğun olaraq Brunistlər kultu yaranır. Ölümlə tanışlığından sonra kultun mərkəzi və simvolik fiquruna çevrilməsi keçidi gerçəkləşmiş olur. Qəhrəmanın mədən partlayışından sağ çıxması rasional izaha malik olsa da, cəmiyyət bu hadisəni metafizik çərçivəyə transformasiya edir və onun ətrafında müxəlif fikirlər yaratma vasitəsilə müqəddəsləşdirməyə çalışır. Beləliklə, R. Kuver fərdin deyil, birbaşa kütlənin müqəddəsləşdirmə "hərəkat"ını önə çəkir. Covanni özünü şüurlu şəkildə peyğəmbər hesab etmir, məhz kollektiv şüurun proyeksiyası əsasında formalaşan kult fenomenidir ki, bu xüsusiyyət onu klassik messianik obrazlardan fərqləndirən cəhətdir.

Roman bütünlüklə kultun yaranma modelinə münasibət və onun dekonstruksiyasına əsaslanır. Kultun meydana gəlməsi üçün bir şəxsin ilahi hədiyyəyə (xarizmatikaya) çevrilməsi ilə güclü liderlik qabiliyyətlərinə yiyələnməsi və özünü bu yöndə inkişaf şəkli ilə əlaqədardır. Qədim zamanlardan bəri insanlar din və ya kult yaratmaqla mənəvi və rasional ehtiyaclarını ödəməyə çalışmışlar. Bu inanclar sisteminə müəyyən simvollar daxil olur ki, müqəddəs

obyektlərə və ya şəxslərə xüsusi hörmət və rəğbət hissləri oyanır [7, s.69]. Bu baxımdan Brunonun mədəndən yeganə sağ çıxan insan olması, komaya düşməsi və ölümdən dönməsi kifayət edirdi. Bunu spiritualistlər mistisist təcrübə adlandırırlar ki, Bruno da tam bu meyarlara cavab vermişdir. İsa məsihin prototipi rolunu oynamışdır. O da məsih kimi "ölmüş" və yenidən dirilmişdir. Bu cəhətlər din və ölüm arasındakı əlaqənin güclənməsi, mistik təcrübənin meydana gəlməsi, problemin irrasional izahının mahiyyətini açıqlamağa imkan verirdi. Çünki insanlar hər zaman ölümlə bağlı keçidləri dərk etməyin yolu kimi dinləri yaratmağa cəhd edirlər. Brunonun özü də kultun mərkəzi obyekti olmağa qarşı çıxıb razılaşmamasına baxmayaraq, kollektiv psixozun əsirinə çevrilmişdir. Elə əsərin ən maraqlı məqamı da buradadır: Bruno kultu yaratmır, o öz-özünə təbii şəkildə formalaşır. İnsanlar onu ölümdən həyata keçid istiqamətindəki təfəkkür dilemmasını açmaq üçün irrasional element vasitəsinə çevirir. Müəllif burada insanın təbiətini açıb göstərməyə çalışır. Din və kult anlayışları bəşəriyyətin ayrılmaz hissəsidir, insanlıq var olduqca bu ikili hər zaman özünü bu və ya digər şəkildə göstərəcəkdir.

### 3. "Brunistlərin mənşəyi" romanında fanatik şüurun psixologiyası və apokaliptik motiv problemi

Fanatik şüurun psixologiyası romanda kütlə psixozu fenomeninin tərkib hissəsi kimi təqdim olunur. Oxucu romanın növbəti hissələrində Nortonlar ailəsi ilə tanış olur. Nortonlar ailəsi iki nəfərdən ibarətdir: Uayli Norton və Eleanor Norton. Eleanor Norton spiritualist dünyagörüşünün daşıyıcısı kimi göstərilmişdir və əsərdə fanatik şüurun təcəssüm olunduğu obrazdır. Domiron adlı ruh isə başındakı səs kimi ona qəribə davranışlar etməyi əmr edən "daxili səs" funksiyasını yerinə yetirir. Eleanor əvvəlcədən gələcək təhlükənin bu ruhun vasitəsilə qarşısını almağa çalışır. Ruh ona tez-tez dəhşətli hadisələrlə bağlı proqnozlar verir və qəribə şəkildə bu proqnozlar reallıqlarla üst-üstə düşür. Eleanor haqqında onun dəli olub-olmadığı, qəribə göründüyü haqqında müxtəlif fikirlər yaranır. Proqnozların müəyyən hallarda reallıqla uzlaşması obrazın ətrafında ambivalent münasibət formalaşdırır.

Domiron romanın mistik qatını təşkil etsə də, müəllif bu mistikanı təsdiqləyən mövqedə dayanmır və ontoloji reallıq kimi göstərmir. Bu yanaşma postmodern dekonstruksiya psinsipinə tam şəkildə uyğun olaraq mistik elementlərin relativliyini və şərtiliyini ön plana çəkir. Buna görə də Domiron fenomeni psixoloji və sosial determinantlarla izah olunur. Eleanorun qeyri-maddi varlıqla ünsiyyəti dini fanatizmin fərdi şüurda formalaşma mərhələlərini əks etdirir. Bu baxımdan da roman dini inancın metafizik deyil, psixo-sosial dərinliklərə və köklərə malik olduğunu göstərir.

Domiron Eleanorun daxili psixoloji durumudur. O, intuisiya və qorxu ilə yaşadığı üçün bu ruh onun xariciləşmiş ünsiyyət vasitəsinə çevrilmişdir. Məsuliyyəti öz üzərindən atmaq üçün Eleanorun şüuru Domironu yaratmışdır: qərarları "mən istədim" yox, "Domiron belə dedi" şəklində əsaslandırır. Bu da psixologiyada daxili səs və ya super-eqonun başqa bir bucaqdan təsviri kimi qəbul olunur. R. Kuver burada postmodern bir həmlə edir. Domironun real olub-

olmamasını göstərmir. Eyni zamanda oxucu roman boyu daim tərəddüd içərisində qalır ki, bu mistik həqiqətdir, yoxsa psixoloji illüziya. Belə olan təqdirdə Domiron şüurun və diskursun məhsulu kimi özünü göstərir. Bu ruh Eleanorun psixoloji vəziyyətindən çıxış edərək, böhran içində olan cəmiyyətin kütləvi qorxuları kimi təqdim olunur. Domiron obrazı fərdi şüurun daxili səsinin sosial diskursla birləşərək mistik forma almasının bədii təcəssümüdür.

Əsərdə media faktoru xüsusi ideya-estetik mahiyyət daşıyır və reallığın simulyativ forması kimi təqdim olunur. Jurnalist Castin Millerin obrazı informasiya vasitələrinin neytral müşahidəçidən daha çox sensasiya yaradan aktiv subyektə çevrilməsini simvolizə edir. Brunistlər kultunun nümayəndələrinin artması birbaşa olaraq medianın məsələyə daha çox diqqət göstərməsi və ictimaiyyətə işıqlandırması ilə əlaqələndirilir. R. Kuver bu yolla müasir cəmiyyətdə reallığın media tərəfindən qurulduğunu və ictimai rəyin manipulyasiya olunduğunu tənqid edərək göstərməyə çalışmışdır.

Romanın apokaliptik motivləri ironik xarakter daşımışdır və apokaliptik diskursun dekonstruksiyası istiqamətində əks olunmuşdur. Əsasən, klassik apokaliptik mətnlərdə dünyanın sonu kütlə psixologiyasına təsir gücünü daha da artırmaq məqsədi daşıyaraq, qorxu yaratmaqla dini inanclar sistemini möhkəmləndirməyə xidmət edir. Dini mətnlərdə isə bundan geniş şəkildə və müxtəlif formalarda istifadə olunur. Kollins [2, s.6] klassik apokaliptik janrın nəzəri əsaslarının tədqiqatçısı kimi onun istifadə üslubuna əsasən, qeyd etmişdir: "Apokalipsislərin məzmunu həm zaman, həm də məkan ölçüsünü əhatə edir və vurğu müxtəlif əsərlərdə fərqli şəkildə paylanır". Robert Kuver isə əsərində bu ənənəvi modeli yenidən işləmiş, bu motivə dekonstruktiv yanaşması ilə klassik apokaliptik narrativlərə ironik münasibəti ilə seçilmişdir. Apokaliptik məqam komadan ayılan Brunonun özündən qeyri-ixtiyari olaraq, şüursuzca işlətdiyi ifadədən sonra ortaya çıxır. Bu ifadə Eleanora tərəfindən dünyanın dağılacağı ilə bağlı proqnoz kimi interpretasiya olunur. Jurnalist Castin Miller və xanım Kollins də onunla eyni düşüncəyə qapılırlar və kollektiv inanma aktının iştirakçılarına çevrilirlər. Hətta Brunist kultuna inamı güclənərək kollektiv psixozun nəticəsində Kollinsin evi də qəsdən yandırılır. Bu son hadisədən sonra isə jurnalistin brunistlərlə bağlı məqalə yazması mifin sosial gücünü daha da artırır. Lakin dünyanın sonu baş vermir, insanların psixoloji dünyasında dərin sarsıntı yaranır. Marsella Brunonun avtomobil qəzasında həlak olması kultun ideoloji əsaslarını və bünövrəsini dağıdır. Belə olduğu halda da mifin süqutu sürətlənir. Bu məqam əsərin fəlsəfi kulminasiyası kimi göstərilir və insanın öz yaratdığı mifin qurbanına çevrilməsi ideyası ön plana çıxarır.

**Nəticə.** Məqalədə "Brunistlərin mənşəyi" romanında əks olunan dini fanatizm, həm ictimai, həm də media manipulyasiyasının əsasında kollektiv psixozun yaranma xüsusiyyətlərinin üzə çıxarılması istiqamətində tədqiq edilmişdir. Böhran məqamlarında rasional düşüncənin zəifləməsi, irrasional mövqenin ön plana çıxması, cəmiyyətin mifoloji şüurdan çıxa bilməyib hər anda ona sığınmasına ironiya ilə yanaşır. İronik yanaşma bəşəriyyətin kult, sakral obyektə çevrilən insanın qəfildən bir heçə çevrilməsini göstərir. Travmatik psixozdan cəmiyyətin özünün müqəddəsləşdirdiyi obyekti elə özünün də imtina

edərək rədd etməsini Kuver romanda tənqid hədəfinə çevirmişdir. Bu hədəf dövrün və zamanın insan düşüncəsinə təsiri, kütlə psixologiyanın həm gülünc, həm də təhlükəli olduğunu göstərməsi ilə səciyyələnir. Müəllif oxucunu yaradılan mifin doğruluğunu müəyyən etmək üçün deyil, bu mifin formalaşma prosesi üzərindən onu düşünməyə vadar edir. Bununla da romanı sadəcə mistik bir mətn kimi deyil, mifin yaranmasının tənqidi kimi oxucunu oxumağa və şərhlər verməyə çağırır.

Beləliklə, roman çoxqatlı ədəbi mətn kimi tədqiqata cəlb olunmuşdur. Əsər müasir ədəbiyyatşünaslıq üçün əhəmiyyətli tədqiqat obyekti olmaqla yanaşı, postmodern ironiyanın da əks olunduğu ədəbi nümunədir.

### Ədəbiyyat

1. Alden B.T. (1982), An encounter with Robert Coover. The Antioch Review, Vol.40, No.3, 287-302.
2. Collins J.J. (1998), The Apocalyptic Imagination. Grand Rapids: Eerdmans, 351.
3. Coover R. (1971), The Origin of the Brunists. New York: Viking Press, 544.
4. Hutcheon L. (1988), A Poetics of Postmodernism. New York: Routledge, 284.
5. McHale B. (1987), Postmodernist Fiction. London: Routledge, 278.
6. Tuncer M. (2011), Dini kultun (pərəstişin) sosioloji mahiyyəti və kult qrupunun yaranma səbəbləri (klassik və müasir sosioloji modellər). TURAN-SAM, No.3, 69. https://arastirmax.com/en/system/files/dergiler/25822/makaleler/3/11/arastrmx_25822_3_pp__11.pdf